

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı


Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 13 (21.165)

21 yanvar 2015-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də – Ümumxalq Hüzn Günündə 20 Yanvar şəhidlərinin xatirəsini yad edib.

Yanvarın 20-də səhər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qanlı yanvar faciəsində həlak olanların əziz xatirəsini yad etmək üçün Şəhidlər xiyabanına gəldi.

Prezident İlham Əliyev "Əbədi məşəl" abidəsi önünə əklil qoydu.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi hərbi orkestrinin ifasında Azərbaycanın Dövlət Himni səsləndi.

Dövlət və hökumət rəsmiləri, respublikamızdakı dini icmaların başçıları, xarici ölkələrin Azərbaycandakı səfirləri, beynəlxalq təşkilatların nümayəndələri də şəhidlərin əziz xatirəsini yad etməyə gəlmişdilər.



# Qəhrəmanlıq və qürur tariximiz

## *Naxçıvanda 20 Yanvar faciəsinin 25-ci ildönümü qeyd olunmuşdur*





1990-cı il yanvarın 20-də keçmiş sovet ordusunun hərbi hissələri Bakı şəhərində müstəqil dövlət yaratmaq və azadlıq əldə etmək üçün ayağa qalxan dinc əhaliyə qarşı amansız qırğın törətmişdir. Bəşəriyyət tarixinə silinməz faciə kimi yazılmış 20 Yanvar həm də müstəqillik tariximizin qəhrəmanlıq səhifəsi, iftixar günüdür.

Azərbaycan xalqının mustəqillik mübarizəsinin zirvəsi sayılan bu faciənin törədilməsindən 25 il ötür. Ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da hər il 20 Yanvar şəhidlərinin xatirəsi əziz tutulur, şəhər və rayonlardakı Şəhidlər xiyabanları ziyarətgaha çevrilir.

Yanvarın 20-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Qanlı yanvar faciəsində həlak olanların və şəhidlərin əziz xatirəsini yad etmək üçün Naxçıvan şəhərindəki Şəhidlər xiyabanına gəlmişdir.

Ali Məclisin Sədri xiyabandakı Ana abidəsinin önünə əklil qoymuş, şəhidlərin xatirəsinə ehtiramını bildirmişdir.

Sonra Naxçıvan Qarnizonunun hərbi orkestrinin ifasında Dövlət Himni səslənmişdir.

Ali Məclisin Sədri Vətənimizin azadlığı və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçərək şəhidlik zirvəsinə ucalanların məzarlarını və 1918-1920-ci illərdə erməni daşnakları ilə mübarizədə Naxçıvanın köməyinə gələn qardaş türk ordusunun bu torpaqlarda şəhid olmuş əsgərlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək tər güllər qoymuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, nazirlik, komitə və digər mərkəzi təşkilatların, məhkəmə, hüquq-mühafizə orqanlarının, hərbi hissələrin, elm və təhsil müəssisələrinin, Naxçıvan Şəhər İcra Hakimiyyətinin və onun yerli təşkilatlarının, ictimai təşkilatların və yaradıcılıq birliklərinin, kütləvi informasiya vasitələrinin, mədəniyyət, səhiyyə və sağlamlıq müəssisələrinin kollektivləri, şəhər sakinləri şəhid məzarları önündən keçərək onların əziz xatirəsini ehtiramla yad etmişlər.

Xalqımıza qarşı törədilən bu cinayəti ilk dəfə ümummilli liderimiz Heydər Əliyev 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyində mətbuat konfransı keçirərək əliyalın xalqa qarşı törədilən terroru hüquqa, demokratiyaya, insanlığa zidd aksiya kimi pisləmişdir. Əsl vətəndaşlıq və ümummilli mübarizəyə çağırış məqamı olan bu addım Azərbaycan xalqının milli azadlıq uğrunda apardığı mübarizədə əsas stimul olmuşdur.

Vətən və torpaq şəhidləri ilə ucalır. Vətən yolunda şəhidlik əsl qeyrət, hünər, şərəf və ləyaqət zirvəsidir. Ulu öndər Heydər Əliyevin dediyi kimi: ***"20 Yanvar şəhidlərinin qəhrəmanlığı Azərbaycan xalqı üçün, Azərbaycan gəncləri üçün örnəkdir. Azərbaycanın bugünkü nəsli də, gələcək nəsilləri də bu şəhidlərin qəhrəmanlığından nümunə götürəcəklər. Azərbaycan xalqının milli azadlığını qorumaq üçün, müstəqilliyini qorumaq üçün daim mübarizədə olacaqlar. Daim qəhrəmanlıq nümunələri, vətənpərvərlik nümunələri göstərəcəklər. Ona görə də bu şəhidlərin həlak olması bizim üçün nə qədər qəm-qüssə doğurursa, nə qədər ağır itkidirsə, o qədər də xalqımız üçün qəhrəmanlıq nümunəsi kimi, örnək kimi bizim milli sərvətimizdir, milli iftixarımızdır".***



20 Yanvar hadisələri təkcə azğınlaşmış sovet qoşunlarının Bakıda törətdiyi qanlı cinayətlərlə tamamlanmamışdır. Həmin gün eyni zamanda Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının sərhəd kəndlərinə də erməni silahlılarının işğalçı hücumları olmuşdur. 1990-cı il yanvarın 18-də Şərur rayonunun Kərki kəndi SSRİ Müdafiə Nazirliyinin 7-ci ordusunun köməyi ilə ermənilər tərəfindən işğal olunmuş, 1990-cı il yanvarın 20-də Qanlı yanvar hadisələrinin törədilməsindən 8 saat əvvəl Sədərəyə, muxtar respublikanın digər sərhəd kəndlərinə erməni silahlı dəstələrinin hücumları başlamışdır. Bu, 20 Yanvar faciəsinin ilk qanlı səhifələri idi. Ərazi bütövlüyümüz uğrunda döyüşlərdə naxçıvanlılar düşmənə qarşı mərdliklə dayanmış, qəhrəmancasına mübarizə aparmış, şəhidlər versə də, Naxçıvanı qoruyub saxlamışlar.

Ümummilli liderimiz Heydər Əliyev həmin dövrdə Naxçıvanda baş verən hadisələri belə xarakterizə etmişdir: ***"1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet qoşunlarının Bakıya hücumundan 8 saat əvvəl sovet qoşun birləşmələri və erməni silahlı dəstələri Naxçıvan Muxtar Respublikasına hücum etmiş, qan tökülmüş və erməni quldur dəstələri Naxçıvan Muxtar Respublikasının Kərki kəndini işğal etmişdir... Məhz belə ağır şəraitdə Naxçıvan əhalisi böyük mərdlik və yenilməzlik nümayiş etdirərək Azərbaycanın bu qədim torpağını ermənilərin işğalı təhlükəsindən xilas etdi və onun muxtariyyət statusunu qoruyub saxladı. Milli istiqlaliyyət uğrunda mübarizə yollarında o zaman Naxçıvanın atdığı cəsarətli addımlar bütün Azərbaycan xalqı tərəfindən böyük rəğbətlə qarşılanaraq dəstəkləndi və respublikada gedən siyasi proseslərə öz müsbət təsirini göstərdi".***

Bütün bunlar bir daha təsdiq edir ki, 20 Yanvar faciəsi yalnız Azərbaycan xalqının azadlıq istəyinin qarşısını almaq məqsədi daşımırdı. Bu həm də ermənilərin işğalçılıq siyasətinin həyata keçirilməsinə xidmət edən terror aktı idi. İstər ermənilərin Bakıda sovet əsgəri libasında törətdiyi qırğın, istərsə də hələ faciədən bir neçə gün əvvəl Naxçıvana hücumları bunu bir daha təsdiq edir.

Milli birlik və qəhrəmanlıq simvoluna çevrilmiş 20 Yanvar faciəsi xalqımızın şərəf tarixidir. Bu gün doğma torpağını öz müqəddəs qanları ilə yuyan, onu düşmən tapdağı altına verməyən şəhidlərimizin qəhrəmanlıqları hər bir azərbaycanlının qəlbində əbədi yaşayır. Müstəqil və qüdrətli Azərbaycan uğrunda canlarından keçən şəhidlərimizin ruhu isə şaddır. Çünki ümummilli liderimizin dediyi kimi: ***"Bizim şəhidlərimizin xatirəsinə ən böyük abidə Azərbaycanın istiqlaliyyətidir, müstəqil Azərbaycandır, hüquqi, demokratik, dünyəvi Azərbaycan dövlətidir. Vətən, torpaq uğrunda döyüşlərdə şəhid olan övladlarımız rahat yatsınlar. Çünki artıq onların istəkləri, arzuları yerinə yetirilbdir – Azərbaycan öz dövlət müstəqilliyini əldə edibdir".***

Ardı 2-ci səhifədə






Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, o cümlədən onların ailələrinin sosial müdafiəsinin gücləndirilməsi diqqət mərkəzində saxlanılır. ***"20 Yanvar günü bizim böyük faciəmizdir, ancaq eyni zamanda Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsidir"***, – deyən dövlət başçısının rəhbərliyi ilə Bakı şəhərində şəhidlərin xatirəsinə xüsusi memorial kompleks ucaldılmış, Naxçıvan şəhərindəki Şəhidlər xiyabanı yenidən qurulmuşdur.

Tədbirdən sonra Ali Məclisin Sədri yeni tikilmiş Xatirə Muzeyinə gəlmiş, burada yaradılan şəraitlə maraqlanmışdır.

Məlumat verilmişdir ki, xüsusi memarlıq üslubunda tikilən binada muzey əməkdaşları üçün iş otaqları və geniş ekspozisiya zalı yerləşir. Muzey binasının Şəhidlər xiyabanı yaxınlığında yerləşməsi onun əhəmiyyətini daha da artırır. Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olanların xatirəsinin əbədiləşdirildiyi muzeydə şəhidlərin fotoşəkilləri, şəxsi sənədləri, döyüş fəaliyyətlərini əhatə edən materiallar, eyni zamanda qəhrəmanlıq tariximizin müxtəlif dövrlərinə aid kitablar mühafizə və nümayiş etdirilir. Muzeydə eksponatların xalqımızın soyqırımı tarixi üzrə dövrləşdirilərək yerləşdirilməsi bura gələnlərin, xüsusilə gənc nəslin qəhrəmanlıq tariximiz haqqında ətraflı məlumat almasına imkan verir.

Ali Məclisin Sədri Xatirə Muzeyinin məktəb-muzey şəbəkəsinə qoşulması və interaktiv dərslərin keçilməsi, muzey fondunun qəhrəmanlıq tariximizdən bəhs edən kitablarla zənginləşdirilməsi barədə tapşırıqlar vermişdir.

Həmin gün saat $12^{00}$-də şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Naxçıvan Muxtar Respublikasının rayon mərkəzlərində də 20 Yanvar faciəsinin ildönümü ilə bağlı tədbirlər keçirilmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

# 20 Yanvar faciəsinin 25-ci ildönümü muxtar respublikamızın bütün rayonlarında qeyd edilmişdir

## *Şərur rayonu*



***Qədim və zəngin tarixə malik olan Azərbaycan xalqının milli-azadlıq hərəkatı prosesində 20 Yanvar faciəsi son məqsədə çatmaq, müstəqil dövlətçilik ənənələrini bərpa etmək uğrunda mübarizədə mühüm mərhələ təşkil edir. 20 Yanvar hadisələri xalqımızı bütün dünyaya öz tarixi adət-ənənələrinə bağlı, müstəqil yaşamağa qadir, yetkin, eyni zamanda əyilməz millət kimi tanıtdı.***

Qanlı yanvar istiqlaliyyət, suverenlik, müstəqillik uğrunda mübarizəyə qalxmış Azərbaycan xalqının son 200 il ərzində işğalçı çarizmin müstəmləkəçilik siyasətinə, zorakı – totalitar bolşevik rejiminin mənfur ideologiyasına qarşı haqq-ədalət mücadiləsinin yeni mərhələsinin unudulmaz səhifəsidir. 1990-cı il yanvarın 20-də sovet qoşunlarının Bakıda törətdikləri qanlı cinayətlər Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikasının sərhəd kəndlərində erməni silahlı dəstələrinin fəallaşması ilə müşayiət olunurdu. Onların Sədərəyə və digər sərhəd kəndlərinə hücumu Qanlı yanvarın ilk səhifəsini yazdı. Ancaq naxçıvanlılar düşmənin önündə mərdliklə dayandılar, şəhidlər verərək Azərbaycanın bu qədim torpağını qoruyub saxladılar.

1990-cı ilin 20 Yanvar hadisələrinin 25-ci ildönümü muxtar respublikanın ən böyük bölgələrindən biri olan Şərur rayonunda da qeyd edilib. Rayon sakinləri yanvarın 20-də azadlıq mübarizlərinin xatirəsini böyük qürur və vətənpərvərlik hissi ilə yad ediblər.

Yanvarın 20-də rayon ictimaiyyətinin nümayəndələri Şərur şəhərindəki Şəhidlər xiyabanına gedərək şəhidlərin ölməz xatirəsinə ehtiramlarını bildirib, Vətən övladlarının məzarlarına gül-çiçək düzüblər.

## *Babək rayonu*



20 Yanvar faciəsi xalqımızın tarixinə şərəf və qürur günü kimi yazılıb. Bu tarixi gün Azərbaycan xalqının azadlığı uğrunda apardığı mübarizəsinin şanlı səhifəsidir. Ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan mərd Vətən övladları həmin gün canlarından keçərək şəhidlik zirvəsinə ucalıblar. Böyük itkilərlə, günahsız insanların qətlə yetirilməsi ilə nəticələnən bu faciə, eyni zamanda xalqımızın mübarizliyini, əyilməzliyini və məğrurluğunu bir daha nümayiş etdirib.

1990-cı ilin 20 Yanvar hadisələrinin 25-ci ildönümü Babək rayonunda da ümumxalq hüzn günü kimi qeyd olunub. Müstəqilliyimizin, suverenliyimizin, torpaqlarımızın ərazi bütövlüyü uğrunda 43 babəkli şəhid olub. Bu qəhrəman Vətən övladlarının xatirəsi hər zaman dövlətimiz tərəfindən uca tutulur, şəhid ailələrinə hərtərəfli dövlət qayğısı göstərilir.

Yanvarın 20-də rayon ictimaiyyəti, ağsaqqallar, gənclər, ziyalılar, əmək kollektivlərinin nümayəndələri rayon mərkəzi olan Babək qəsəbəsində şəhidlərin xatirəsinə ucaldılmış abidə kompleksinin qarşısına gələrək onların ölməz xatirəsinə ehtiramlarını bildirib, önünə gül-çiçək düzüblər.

## *Ordubad rayonu*



***20 Yanvar hadisələri xalqımızın milli azadlıq arzusuna qarşı törədilmiş ən böyük təcavüz faktı, bir qəhrəmanlıq səhifəsidir. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycan xalqına qarşı törədilmiş cinayət, tökülmüş nahaq qanlar, insanların vəhşicəsinə qətlə yetirilməsi Azərbaycan xalqının müstəqillik uğrunda mübarizə əzmini qıra bilmədi.***

SSRİ rəhbərliyinin Azərbaycan xalqına qarşı törətdiyi bu qanlı cinayət xalq kütlələrini sıx birləşdirdi, onların mübarizliyini daha da artırdı. 20 Yanvar faciəsi yeni tariximizə həm də bir qürur günü kimi yazıldı. Çünki bu hadisə günahsız insanların amansızcasına qətlə yetirilməsi ilə nəticələnsə də, öz azadlığına, müstəqilliyinə can atan Azərbaycan xalqının mübarizliyini, məğrurluğunu bir daha bütün dünyaya, o cümlədən ovaxtkı imperiya rəhbərliyinə aydın şəkildə nümayiş etdirdi. Həmin gecə Azərbaycan xalqı özünün yenilməzliyini, qəhrəmanlığını, Vətənə, torpağa sədaqətini, azadlıq uğrunda mübarizə əzmini bütün dünyaya bəyan etdi. Məhz bu əzmin, iradənin sayəsində xalqımız müqəddəs arzusuna çatdı, milli azadlığına qovuşdu. Azərbaycan müstəqil dövlət kimi dünya birliyinə daxil oldu.

25 ildir ki, həmin gün ölkəmizin hər yerində qeyd edilir, şəhidlərin xatirəsi böyük ehtiramla anılır.

41 şəhidin doğulub boya-başa çatdığı Ordubad rayonunda da dünən faciənin ildönümü ilə bağlı tədbir keçirilib. Rayon ictimaiyyətinin nümayəndələri səhər saatlarından başlayaraq Ordubad şəhərinin Heydər Əliyev prospektindəki Şəhidlər xiyabanına gələrək şəhid məzarları üzərinə qərənfil dəstələri düzüb, Vətən övladlarının ruhuna dualar oxuyublar.

## *Culfa rayonu*



Azərbaycan xalqının yaddaşına qəhrəmanlıq salnaməsi kimi yazılmış 20 Yanvar faciəsi 25 ildir ki, böyük ehtiramla yad olunur. Xalqını və dövlətini sevən, dövlətçiliyimizi və ölkəmizin ərazi bütövlüyünü qorumağı özünün vətəndaşlıq borcuna çevirən hər bir azərbaycanlı müqəddəslik ünvanlarına – şəhidlərimizin uyuduğu xiyabanlara üz tutur, azadlığımız uğrunda öz canlarından keçərək şəhidlik zirvəsinə ucalan eloğullarımızı ehtiramla yad edir.

Yanvarın 20-də Naxçıvan Muxtar Respublikasının bütün bölgələrində olduğu kimi, Culfa rayonunda da tədbirlər keçirilib, rayon əhalisi tərəfindən Vətənimizin azadlığı və ərazi bütövlüyü uğrunda mübarizədə öz canlarından keçərək şəhidlik zirvəsinə yüksələnlərin xatirəsinə Culfa şəhərinin Heydər Əliyev prospektində ucaldılmış Şəhidlər Abidə Kompleksi ziyarət olunub. Culfa Rayon İcra Hakimiyyətinin, müxtəlif təşkilatların, təhsil, mədəniyyət müəssisələrinin və yaradıcılıq birliklərinin, səhiyyə və sağlamlıq müəssisələrinin kollektivləri, şəhər sakinləri abidəni ziyarət edərək şəhidlərimizin əziz xatirəsini ehtiramla yad ediblər.

*Ardı 3-cü səhifədə*

## Şahbuz rayonu



***Azərbaycan xalqının tarixinə Qanlı yanvar faciəsi kimi daxil olmuş 1990-cı ilin 20 Yanvar hadisələrinin 25-ci ildönümü münasibətilə muxtar respublikanın bütün bölgələri kimi, Şahbuz rayonunun sakinləri də Vətənimizin azadlığı, ərazi bütövlüyü uğrunda canlarından keçən Vətən övladlarının əziz xatirəsini dərin ehtiramla yad ediblər.***

Yanvarın 20-də rayon ictimaiyyətinin nümayəndələri – ağsaqqallar, gənclər, ziyalılar, əmək kollektivlərinin nümayəndələri, əsgərlər Şahbuz şəhərindəki Ana abidəsi kompleksini ziyarət edib, önünə gül dəstələri düzüblər. Sonra şəhidlərin ruhuna dualar oxunub.

Şahbuz rayonunun Keçili kəndindən olan və o zaman Bakı şəhərində ali təhsil alan tələbə Teymur Orucov da Qanlı yanvar gecəsinin günahsız qurbanlarından biridir. Məlum olduğu kimi, 20 Yanvar faciəsinin törədildiyi qanlı şənbə gecəsindən 8 saat əvvəl erməni daşnakları rus havadarları ilə birlikdə Naxçıvana – sərhəd bölgəsi olan Sədərək rayonuna hücum etmişdilər. Bu hücumun qarşısının alınmasında iştirak edən şahbuzlu Rövşən Orucov qəhrəmanlıq göstərərək həmin döyüşlərdə şəhidlik zirvəsinə ucalıb.

20 Yanvar şəhidləri heç vaxt unudulmayacaq. Onlar xalqın azadlığı yolunda canlarından keçməyə hazır olduqlarını göstərdilər və bu yolu qəhrəmanlıqla qət etdilər. Ölümə gedən yollar onları ölməzliyə, əbədiyyətə, xalqımızı isə əbədi azadlığa qovuşdurdu. Böyük itkilərlə, günahsız insanların qətlə yetirilməsi ilə nəticələnən bu faciə eyni zamanda xalqımızın mübarizliyini, əyilməzliyini və məğrurluğunu bir daha nümayiş etdirib.

## Kəngərli rayonu

*Xalqımızın tarixinə qəhrəmanlıq günü kimi yazılmış 20 Yanvar faciəsinin 25-ci ildönümü Kəngərli rayonunda da ümumxalq hüzn günü kimi qeyd olunub.*

Həmin gün kəngərlilələr Azərbaycanın ərazi bütövlüyünü qorumaq, xalqımızın azadlığı üçün canlarından keçmiş qəhrəman övladlarının xatirəsini yad etmək üçün Qıvraq qəsəbəsində şəhidlərin xatirəsinə ucaldılmış abidənin qarşısından keçərək şəhidlərin xatirəsini dərin ehtiramla yad edib, abidə önünə tər çiçəklər düzüblər.



Azərbaycanın ərazi bütövlüyü uğrunda Kəngərli rayonundan 36 nəfər şəhidlik zirvəsinə ucalıb. Şəhidlərin xatirəsini yad etmək üçün dünən rayon mərkəzi Qıvraq qəsəbəsindən və digər kəndlərdən gəlmiş mərasim iştirakçıları səhər saatlarından başlayaraq Vətənimizin azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsini yad etmək üçün şəhidlər abidəsinə axın ediblər. Xalqımızın qan yaddaşına əbədi həkk olunmuş 20 Yanvar gününün xalqımızın azadlıq mübarizəsindəki məğrurluğunun və mübarizliyinin nümayişi olduğu bildirilib.

20 Yanvar faciəsi mahiyyətinə görə dövlətin öz xalqına qarşı tarixdə misli görünməmiş qətliamı, keçmiş SSRİ, Azərbaycan SSR konstitusiyalarının kobudcasına pozulması idi. O gecə keçmiş SSRİ dövləti dinc əhalinin üstünə qoşun yeritməklə BMT Nizamnaməsinə, beynəlxalq hüquq normalarına məhəl qoymadı, iştirakçısı olduğu Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın müddəalarını pozdu.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ölkə rəhbərliyinə yenidən qayıdışından sonra 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verildi və cinayəti törədənlərin adları ictimaiyyətə çatdırıldı.

## Sədərək rayonu

***Ötən əsrin 80-ci illərinin sonlarını, 90-cı illərinin əvvəllərini xatırlayanda ulu öndərin sözləri yada düşür: “Muxtar respublikanın sərhəd kəndləri dəfələrlə silahlı təcavüzə məruz qalmışdır. Lakin biz hamımız yaxşı bilirik ki, əsas ağırlıq həmişə Sədərəyin üzərinə düşmüşdür. Sədərək kəndində vəziyyət tamam başqadır. Burada əsl müharibə gedib, atışmalar olub”.***

Qeyd olunmalıdır ki, sovet qoşun birləşmələri və erməni silahlı dəstələri 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet qoşunlarının Bakıya hücumundan hələ 8 saat əvvəl bu bölgəyə hücum etmiş, qan tökülmüş, Sədərək kəndində ilk şəhidlər verilmişdir. Ümumilikdə isə mənfur erməni yaraqlıları 1990-1993-cü illərdə Sədərəyə14 dəfə hücum etmiş, 1990-cı ilin martında bu sərhəd bölgəsinə 300-ə yaxın top mərmisi atmışlar. Bu qeyri-bərabər döyüşlərdə 500-ə yaxın ev, məktəb binaları, ictimai-inzibati binalar, sosial obyektlər dağıdılmışdır. Həmin ağır günlərdə sədərəklilərə muxtar respublikamızın hər yerindən, həmçinin ölkəmizin 14 rayonundan kömək gəlmiş, döyüşlərdə 109 nəfər şəhidlik zirvəsinə ucalmışdır. Sədərək bu bölgədə doğulub boya-başa çatan və şəhidlik zirvəsinə ucalan 52 vətənpərvərin yurd yeridir. Onların xatirəsi Sədərəkdə daim uca tutulur.

Dünən 20 Yanvar faciəsinin 25-ci ildönümü Sədərək rayonunda da anılıb. Rayon sakinləri Sədərək kəndində şəhidlərin uyuduğu Şəhidlər xiyabanını ziyarət ediblər.

**Xəbərlər şöbəsi**



# Yanvar hadisələrinin digər bir məqsədi Bakıda qətliamlar törətməklə ermənilərin Naxçıvanı işğalına şərait yaratmaq idi

*Özünü dünyaya sülh carçısı, xalqların qardaşlığının, humanizmin tərəfdarı kimi təqdim edən keçmiş Sovet İttifaqının 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda dinc, əliyalın əhaliyə qarşı həyata keçirdiyi terror aktı onun həqiqi simasını bir daha göstərdi. Təbii ki, bu hadisənin baş verməsinin arxasında həm də siyasi məqsədlər dayanırdı. Qətliamların törədildiyi həmin gündən 25 il keçməsinə baxmayaraq, faciənin səbəbləri barədə bu gün də müxtəlif fikirlər səsləndirilir. Bu fikirlər arasında Azərbaycan kimi, necə deyərlər, yağlı tikəni əldən vermək istəməyən keçmiş Sovet İttifaqı rəhbərliyinin xalqın istəyinin qarşısını almaq üçün totalitar rejimlərə məxsus olan yolu seçdiyi xüsusi qeyd edilir. Azadlıqsevər azərbaycanlıları qorxutmaq, onların mübarizə əzmini qırmaq, eyni zamanda imperiyanın digər ərazilərində də baş qaldırmaqda olan azadlıq, müstəqillik meyillərinə zərbə vurmaq da sovet rəhbərliyinin məqsədləri arasında yer alırdı.*

Yanvar qırğınının başvermə səbəbləri haqqında müxtəlif fikirlər söylənsə də, artıq həmin vaxtadək dünya tarixində analoqu olmayan qətliamın törədilməsindən keçən 25 il ərzində tam sübut olunub ki, qırmızı imperiyanın bu terror aktını törətməkdə digər dəhşətli planı Bakıya qoşun yeridərək diqqəti paytaxta yönəltmək, anklav şəraitdə yaşayan, köməksiz qalan Naxçıvanın Ana Vətən ilə əlaqəsini kəsməklə bu qədim diyarın ermənilər tərəfindən işğal olunmasına şərait yaratmaq idi. 20 Yanvar faciəsi ərəfəsində Naxçıvan Muxtar Respublikasının düşmən Ermənistan ilə sərhədlərində baş verən hadisələr məhz sovet imperiyasının bu çirkin niyyətinin reallaşmasına xidmət edirdi.

1989-cu ilin sonlarından güclü atəşə tutulan Sədərək, Günnüt və Havuş kəndləri 20 Yanvar hadisələrindən 8 saat əvvəl daha intensiv hücumlara məruz qaldı. Həmin vaxt ermənilər əsas qüvvələrini Sədərək istiqamətinə yönəltmişdilər. İlk dəfə həmin gün Sədərək top atəşinə tutuldu. Eyni vaxtda ermənilərin məhz yanvarın 19-da cidd-cəhdlə bütün istiqamətlərdə muxtar respublikaya hücum etməsi onu göstərirdi ki, xain qonşularımız Bakıya qoşun yeridiləcəyindən və bununla da, Naxçıvanın köməksiz qalacağından xəbərdar idilər. Bu isə SSRİ rəhbərliyinin çirkin planının tərkib hissəsi idi. Həmin ərəfədə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Kərki kəndi SSRİ Müdafiə Nazirliyinin 7-ci ordusunun köməyi ilə ermənilər tərəfindən işğal olundu. Kərki və Sədərəyin müdafiəsi uğrunda gedən döyüşlərdə şəhid olanların sayı saatbasaat artırdı. Məhərrəm Seyidov, Etibar Əhmədov, Məhəmməd Məmmədov, Abbasəli Nəzərəliyev, İdris Məmmədov kimi igidlər ağır döyüşlərdə qəhrəmancasına həlak oldular. Bütün bunlara baxmayaraq, ermənilər gözləmədikləri müqavimətə rast gələrək Sədərəyin müdafiə xəttini keçə bilmədilər. Naxçıvanlılar bir yumruq kimi birləşərək qədim diyarın müdafiəsində iştirak etdilər. Bu vəziyyət sovet rəhbərliyini də çaşbaş saldı. Həmin günlərdə Naxçıvanda sovet ordusunun erməni hərbi birləşmələrinə dəstək verməsinə, SSRİ rəhbərliyinin təcavüzkar hərəkətlərə göz yummasına qarşı ciddi etiraz dalğası yarandı.

1990-cı il yanvarın 19-da təkcə sovet rəhbərliyini deyil, bütün dünyanı təəccübləndirən hadisə baş verdi. Naxçıvan Muxtar Sovet Sosialist Respublikası (MSSR) SSRİ-nin tərkibindən çıxdığını bildirərək özünü müstəqil respublika elan etdi. Naxçıvan MSSR Ali Sovetinin qərarında qeyd olunurdu ki, bu qərar muxtar respublikanın ərazi bütövlüyü və vətəndaşlarının həyatı təhlükə qarşısında qaldığı və beynəlxalq hüquqi qüvvəsi olan Qars müqaviləsinin şərtləri kobud surətdə pozulduğu üçün qəbul edilib. Qərarda Azərbaycanın ovaxtkı kommunist rəhbərliyinin Naxçıvana qarşı erməni təcavüzünə biganə qalması da buna səbəb kimi göstərilirdi. Ulu öndərimiz Heydər Əliyev 1998-ci il yanvarın 14-də Azərbaycan Respublikası Konstitusiya Komissiyasının iclasında çıxışı zamanı Naxçıvan Muxtar Respublikasının statusuna münasibət bildirərkən demişdi: ***“1990-cı il yanvarın 19-da Naxçıvan Muxtar Respublikası Ali Sovetinin Naxçıvanın Sovetlər İttifaqının tərkibindən çıxması haqqında qərarı, mən hesab edirəm ki, tarixi bir əhəmiyyət kəsb edibdir. Doğrudur, Azərbaycanın Ali Soveti yanvarın 29-da bu qərarı ləğv edibdir. Amma bu, tarixdə qalan bir hadisədir. Naxçıvan Muxtar Respublikasının insanları və Ali Sovetdə təmsil olunan adamlar öz iradələrini ifadə ediblər. Nəyə görə? – Azərbaycana qarşı edilən ədalətsizliyə görə. Naxçıvana Ermənistan tərəfindən hücumlar edilmişdi. O vaxt Kərki kəndi əldən getmişdi, başqa kəndlərə hücumlar edilmişdi. Hələ Ermənistanda, həm də Naxçıvanda olan sovet qoşunları da naxçıvanlıları müdafiə etməmişdilər – baxmayaraq ki, orada həddindən çox sovet qoşunları var idi. Ona görə də naxçıvanlıların başqa əlacı olmamışdı, qərar qəbul etmişdilər”.*** Naxçıvan MSSR Ali Sovetinin qəbul etdiyi qərar o gecə və sonrakı günlərdə dünyanın nəzərlərini Moskvanın xalqımıza qarşı törətdiyi hərbi-siyasi cinayətlərə, ermənilərin Naxçıvana təcavüzünə yönəltdi. Ən əsası isə dağılmaz deyilən qüdrətli Sovet İttifaqının çöküşü də məhz yanvarın 19-da Naxçıvandan elan edilmiş oldu. Sovet İttifaqının rəhbərliyi şok vəziyyətinə düşmüşdü. Çünki onun mövcudluğunun 68 ilində ikinci belə siyasi hadisə baş verməmişdi. Türkiyə və İranla sərhəddə olan, haqlı olaraq Qars, Moskva kimi beynəlxalq müqavilələri əlində rəhbər tutan Naxçıvan MSSR-in bu addımı Qorbaçov rejiminin Azərbaycanı parçalamaqla bağlı planlarına güclü zərbə vurmuşdu. Bakıdakı Qanlı yanvar qırğınından sonrakı dövr – 1990-cı ilin fevral, mart, aprel, may ayları da blokada vəziyyətində olan Naxçıvanda çox gərgin keçdi. Biçənək, Şada, Gərməçataq, Sədərək, Havuş kəndləri erməni hücumlarına məruz qaldı. 1990-1993-cü illərdə ermənilərin 14 hücumu zamanı Sədərək 109 şəhid verdi.

*Artıq hər şey geridə qalıb. Bu gün ulu öndərin qurduğu və ümummilli liderin layiqli siyasi varisi Prezident İlham Əliyevin regionun lider dövlətinə çevirdiyi müstəqil Azərbaycan Respublikası, onun istənilən hərbi təcavüzə qətiyyətlə cavab vermək gücündə olan qüdrətli Silahlı Qüvvələri, bir də xalqımızın müstəqillik, azadlıq uğrunda apardığı şanlı mübarizə tarixi var. Bugünkü tarixi gerçəklik bir daha sübut edir ki, 20 Yanvar Azərbaycan xalqının tarixində, sadəcə, kədərlə xatırlanacaq gün deyil, həm də bizim üçün şan və şərəf, milli qürur günüdür.*

**✍ Rauf ƏLİYEV**



## Qəhrəmanlıq tariximiz

Naxçıvan Tibb Kollecində 20 Yanvar faciəsinin 25-ci ildönümünə həsr olunmuş “Qəhrəmanlıq tariximiz” mövzusunda tədbir keçirilmişdir. Tədbirdə kollecin direktoru, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı İlhamə Mustafayeva çıxış edərək yanvarın 19-dan 20-nə keçən gecə rus imperiyasının törətdiyi qanlı cinayətlər nəticəsində xalqımızın başına gətirilmiş müsibətlər, baş verən qanlı qırğın barədə söz açmış, həmin ağır dəqiqələrdə Vətəndən uzaqlarda olsa belə, öz millətinin, xalqının taleyinə biganə qala bilməyən ümummilli liderimiz Heydər Əliyevin vətənpərvərliyini bir daha xatırlatmış, onun bu istiqamətdə apardığı mübarizədən danışmışdır. Vurğulanmışdır ki, 20 Yanvar faciəsinin tariximizdə şərəfli yeri var və illər, əsrlər ötəcək, bu qanlı olayda canlarını qurban vermiş şəhidlərimiz heç zaman unudulmayacaq. Lakin unudulmayan bir tarixi gerçəklik də ondan ibarətdir ki, bu şərəfli tarixə siyasi-hüquqi qiyməti ümummilli lider Heydər Əliyev vermişdir. 20 Yanvar şəhidlərinin adlarının əbədiləşdirilməsi, onların ailələrinə və bu qanlı olayda sağlamlıqlarını itirmiş əlillərə dövlət qayğısı ulu öndərin daim diqqət mərkəzində olduğu kimi, bu gün Prezident cənab İlham Əliyevin də həyata keçirdiyi sosial siyasətin əsas istiqamətlərindən biridir.

Sonra kollecin müəllimlərindən Rəna Vəliyeva, Arzu Kərimli və başqaları çıxış edərək bildirmişlər ki, 20 Yanvar hadisələri Azərbaycanın müstəqillik mübarizəsi tarixinə faciə və xalqımızın qəhrəmanlıq salnaməsi kimi yazılmış , həmin ağrılı günlər həm də sınaq dövrü kimi yadda qalmışdır. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet rejiminin hərbi, siyasi və mənəvi təcavüzünə məruz qalmış Azərbaycan xalqı öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu bütün dünyaya nümayiş etdirmişdir.

Sonda 20 Yanvar faciəsinə həsr olunmuş “Şəhidlik zirvəsi” adlı sənədli film nümayiş etdirilmişdir.

**Xəbərlər şöbəsi**




*Yanvarın 20-də Naxçıvan şəhərindəki “Gənclik” Mərkəzində Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə kinorejissor, ssenarist Vahid Mustafayevin 1990-cı ildə baş vermiş 20 Yanvar faciəsi barədə çəkdiyi “Qanlı yanvar” filminin nümayişi olub.*

# “Gənclik” Mərkəzində “Qanlı yanvar” filminin nümayişi olub

Naxçıvan Muxtar Respublikasının ictimaiyyət nümayəndələri, elm və mədəniyyət xadimləri, Naxçıvan şəhərindəki Heydər Əliyev adına Hərbi Liseyin kursantları, kütləvi informasiya vasitələrinin nümayəndələri filmə baxıblar.

Film “Bakıfilm”, ANS Şirkətlər Qrupu və Çingiz Mustafayev Fondunun vəsaiti hesabına çəkilib. Ekran əsərinin çəkilişlərinə dövlət tərəfindən də böyük dəstək verilib.

Azərbaycanın müstəqillik tarixinin qanlı və şanlı səhifəsinə çevrilmiş 1990-cı ilin 20 Yanvar hadisələri poetik düşüncəmizdə, teatr səhnəmizdə, bədii publisistikamızda öz əksini tapsa da, hələ də bədii ekran həyatını yaşamamışdı. Odur ki, xalqımızın milli azadlıq istəyindən dönmədiyini, bu yolda hətta canından belə keçməyə hazır olduğunu təcəssüm etdirən belə bir bədii filmin ekranlaşdırılması olduqca təqdirəlayiq hadisədir.





“Qanlı yanvar” filminin əsas süjet xəttini real hadisələr təşkil edir. Ekran əsəri bir neçə baş rol qəhrəmanının timsalında xalqın müstəqillik idealları uğrunda mübarizəsini canlandırır. 1990-cı ilin yanvarında baş verən hadisələrin təsvir olunduğu filmdə təcavüzkar ordunun Bakıya yeridilməsi və qanlı qırğın törətməsini əks etdirən dramatik səhnələr yer alıb.

Qanlı yanvar hadisələrinin iştirakçısı olan rejissor Vahid Mustafayev filmdə real hadisələri canlandırmağa və insanları bu gün də düşündürən bir sıra suallara cavab tapmağa çalışıb.

Müəllif toxunduğu mövzunun bəşəri mahiyyətini realistcəsinə vermək məqsədilə çəkilişlərə, xüsusi olaraq, beynəlmiləl heyəti cəlb edib. Filmdə Azərbaycan ilə yanaşı, Amerika, İran, rus və türk aktyorları birgə çalışıblar. Belə ki, 20 Yanvar hadisələrinin 25-ci ildönümünə həsr olunmuş “Qanlı yanvar” filminin çəkilişində dünya şöhrətli amerikalı aktyor Lane Devies, türk kinosunun canlı əfsanəsi Nəbahət Çehrə, habelə İrandan dəvət olunmuş tanınmış kinooperator Afşin Əlizadənin başçılıq etdiyi çəkiliş qrupu və azərbaycanlılardan ibarət heyət iştirak edib. Filmdə belə bir beynəlmiləl kollektivin iştirakı, sözsüz ki, ekran əsərini Azərbaycan çərçivəsindən çıxarıb beynəlxalq səviyyəyə qaldırır.



# Şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib

XX əsrin əvvəlində müstəqilliyimizə gedən yol 1918-ci il 31 mart soyqırımından, həmin əsrin sonunda isə əbədi müstəqilliyimizə aparan yol 1990-cı ilin 20 Yanvar faciəsindən keçdi. Bu iki qanlı tarix göstərdi ki, tarixi dövlətçilik ənənələrinə malik xalqımızı dövlət müstəqilliyi uğrunda mübarizədə qorxutmaq, onun haqq səsini boğmaq mümkün deyil. Sinələrini imperiya ordusu qarşısında sipər edən oğul və qızlarımız öz istəklərinə qovuşdular. Dəhşətli 20 Yanvar faciəsindən sonra Azərbaycan imperiya buxovlarından azad olaraq müstəqilliyini bərpa etdi.

Yanvarın 20-də saat 12[00]-də Azərbaycanın bütün ərazilərində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da doğma yurdunun, xalqının azadlığı uğrunda şəhidlik zirvəsinə ucalan Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, nəqliyyatın hərəkəti dayandırılıb, avtomobillərdən səs siqnalları verilib. Həmin vaxt xətdə olan sərnişin qatarlarının da hərəkəti dayandırılaraq səs siqnalları verilib.

**Xəbərlər şöbəsi**

*Milli qəhrəmanlarımız*

# Azadlığımıza uzanan polad körpülər...

*(Oçerk)*



***...Yolumuz Şərur rayonunun Qarahəsənli kəndinədir. Burada torpaqlarımızın bütövlüyü uğrunda canından keçmiş Milli Qəhrəman Kərim Kərimovun doğulub boya-başa çatdığı ocağı ziyarət edəcəyik.***

Kərim Kərimov haqda az məlumatı olanlar üçün deyim ki, xalqımızın bu igid övladı 2 iyul 1971-ci ildə Şərur rayonunun Qarahəsənli kəndində dünyaya göz açıb. Orta məktəbi bitirdikdən sonra Rusiyanın Tümen vilayətinə gedib və Ali Hərbi Mühəndis-Komandirlər Məktəbinə qəbul edilib. Siyasi və hərbi hazırlıq əlaçısı olub. Qarabağda döyüşlər şiddətlənəndə onunla bir yerdə təhsil alan 15 nəfər azərbaycanlı kursantı ətrafına toplayıb deyib: “Bu gün Vətənimizin ağır günüdür. Ölkənin hərbi mütəxəssislərə böyük ehtiyacı var. Əgər biz günahsız insanların Qarabağda axıdılan qanına biganə qalsaq, onda Vətən bizi bağışlamaz”. Beləliklə, Tümen Ali Hərbi Mühəndis-Komandirlər Məktəbinin son kursunda təhsil alan tələbələr Azərbaycana qayıdıb təhsillərini Bakı Ali Birləşmiş Komandanlıq Məktəbində davam etdiriblər. Onlar Biləcəridə təlim keçdikdən sonra, 1992-ci il aprelin 15-də Goranboy rayonuna yola düşüblər. İlk gündən “Tümendən gələn zabit” kimi tanınan 21 yaşlı Kərim Kərimov istehkamçılar bölməsinə komandir təyin olunub. O, verilən bütün tapşırıqları vaxtında və yüksək dəqiqliklə yerinə yetirib. 1992-ci il mayın 1-də Tapqaraqoyunlu kəndi ətrafında minalanmış sahələrin zərərsizləşdirilməsi əməliyyatı başlanıb. Əməliyyat zamanı bir nəfər əsgərimiz yaralanıb. Döyüşçüyə birinci qrup qan lazım olanda ilk dəfə Kərim özü qan verib. Mayın 5-də Kərim bir neçə döyüş yoldaşı ilə birlikdə quldurlar yuvası Talış təpəsinə qalxıb. Onların döyüş hünəri sayəsində 40 nəfərə yaxın erməni quldurу məhv edilib. Bölmə döyüşə-döyüşə yüksəkliyi ələ keçirib. Səhər saat 5 radələrində düşmən güclü hərbi texnikanın köməyilə onları mühasirəyə alıb. Şiddətli döyüş başlanıb. Kərim öz avtomatını yoldaşına verib, qumbaraatanla hücuma keçib. Düşmənin bir döyüş maşını vurulub. İkinci maşına atəş açılanda artıq Kərim yaralanmışdı. O, əsir düşməmək üçün odlu siqnal fişəngini sinəsinə sıxıb. Erməni quldurları Kərimin və onun bir neçə döyüş yoldaşının nəşini götürüb aradan çıxıblar. İyunun 12-də kəndlərin erməni silahlı quldur dəstələrindən təmizlənməsi əməliyyatı başlanıb. Milli Ordumuza əsir düşmüş iki erməni döyüşçüsünün verdiyi məlumatla Kərimin fermanın yanında basdırılmış, daha doğrusu, üstü şifer qırıntılarıyla örtülmüş nəşi tapılır. Onunla birlikdə daha üç nəfərin nəşi orada olur. Kərimin nəşi Gəncə aeroportuna gətirilib Naxçıvana yola salınır. 1992-ci il mayın 5-də Goranboy döyüşlərində qəhrəmancasına şəhid olmuş Kərim Kərimov iyunun 17-də doğma kəndi Qarahəsənlidə torpağa tapşırılır. 11 sentyabr 1992-ci il tarixli fərmanla Kərimov Kərim Məhəmməd oğlu ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülür. Qarahəsənli kəndində onun büstü qoyulur. Goranboy və Şərur rayonlarında adı əbədiləşdirilir, məktəb, küçə və körpü qəhrəmanın adı ilə tanınır.

Milli Qəhrəmanımızın ata ocağında bizi igidimizin anası Xədicə Kərimova qarşılayır, “xoş gəldiniz”, – deyir. Ömrünün 69-cu ilini yaşayan, ancaq yerişindən, duruşundan “Mən hələ qocalmamışam!”, – deyən Məhəmməd kişi də tezliklə gəlib çıxır. Onu da deyim ki, milli qəhrəman atası o qanlı-qadalı illəri, baş verən hadisələri dəqiqliklə xatırlayır, oğlunun nəşini gətirməyə gedərkən qarşılaşdığı insanların ad və soyadlarını, onlarla olan söhbətləri sətir-sətir dilə gətirir. Övladını itirmiş bir ataya oğlu ilə bağlı sual vermək üstü qaysaqlanmış yaraları yenidən qoparmaq kimidir. Ancaq nə etmək olar? Ata verilən sualları dəyanətlə cavablandırır, hər kiçik detalı belə yada salmağı unutmur:

– Oğlumun şəhid olması xəbərini kəndimizin sakinləri, qohum-əqrəbalar məndən qabaq eşitmişdilər. Ancaq heç kim ürək edib mənə bir şey söyləyə bilməmişdi. Xəbəri eşitdiyim zaman onlardan incimişdim, ancaq üstündən illər keçdikdən sonra onları bunun üçün qınamağa başlamışam. Axı necə deyərdilər? Oğlumun xarakterinə yaxşı bələd idim və Tümendən bir qrup zabitin Azərbaycana döndüyünü eşidəndə qəti olaraq bilirdim ki, onların içində Kərim də var. Sonra eşitdim ki, bu zabitlərin hamısı Qarabağda döyüşür. Sonra cəbhə xəttindən tez-tez teleqramlar gəlməyə başladı. Kərim yazırdı ki, hər şey qaydasındadır. Ancaq müharibədir də. Heç vaxt ürəyim rahat olmurdu, səksəkədə idim. Deyirlər, döyüş meydanında güllə özü axtarıb səni tapır.

Bu andaca Məhəmməd kişinin söhbətində kiçik bir fasilə yarandı, otağa sükut çökdü. Bilirəm ki, şəhid atası o illərə qayıdıb, onu bu düşüncələrdən ayırmaq olmaz.

...Milli Qəhrəmanımızın anası Xədicə Kərimova həyat yoldaşının söhbətini səssiz-səmirsiz, lal bir sükutla dinləyir, arabir qanrılıb divardakı şəkildə sərv qamətli oğluna baxır. Qürur hissi keçirdiyi üzündən oxunur. İgid anasının mətanəti, dözümü məni heyrətləndirir. Araya çökən sükutdan istifadə edib yavaşca ona yaxınlaşıram: Necəsən, igid anası? – deyib onu düşüncələrindən ayırıram.

– Yaxşıyam, oğlum, yaxşıyam. Necə olum? Kərim öz şəhid adı ilə məni başqalarından fərqləndirib. Artıq 23 ildir ki, mən adi bir kənd sakini yox, Milli Qəhrəmanı, canını Vətən yolunda qurban vermiş bir oğulu dünyaya gətirən qadınam. Bilirəm ki, insanlar da mənə elə o gözlə baxırlar. Ona görə də heç bir zaman özümü insanlar içində kədərli, qəmli, oğul acısı çəkən kimi göstərə bilmərəm. Ona görə göstərə bilmərəm ki, mənən sarsılmış bir qadından başqalarına nümunə ola bilməz. Bəzən toylarda qol götürüb süzən cavanları görüb düşünmüşəm ki, Kərim də kaş burda olardı, onun da toyunu görərdim. Sonra öz-özümə demişəm ki, yox, Xədicə, sənin oğlun olması lazım olan yerdə olub, əgər o və onun kimilər orda olmasaydılar, daha çox ana öz övladı üçün ağlayacaqdı.

Milli Qəhrəmanın ata ocağından ayrılan zaman Azərbaycan Vətən müharibəsi veteranı Elsevər Rüstəmovdan bizi Milli Qəhrəmanımızın məzarına qədər müşayiət etməsini xahiş edirəm. Qarahəsənli qəbiristanlığının daş hasarını keçib bir neçə addım getdikdən sonra üzərində qəhrəmanımızın və kənddən olan daha bir şəhidimizin – Muxtar Məmmədovun şəkilləri olan başdaşları ilə qarşılaşıram. Kərim yenə lal-dinməz baxışları ilə ziyarətçilərini seyr edir. Baxışlarında sanki bir nigarançılıq, bir narahatlıq var. Bu hələ də düşmən işğalı altında olan Qarabağın, hər gün düşmən gülləsilə diksinən Tapqaraqoyunlunun, orada qoyub gəldiyi insanların gələcək taleyinin nigarançılığıdır. Öz-özümə “Nigaran qalma, qəhrəman”, – deyirəm, Qarabağın azad olunmasına çox az qalıb, mənfur düşmən öz qanında boğulacaq, sənin və sənin kimi yüzlərlə şəhidimizin qanı yerdə qalmayacaq. Əgər siz olmasaydınız, yurd da olmazdı, Vətən də. Hər bir igidimizin tökülən bir damla qanının yerdə qalmaması üçün qələbə naminə canından keçmiş ərənlərimizin, ölməzlik, əbədiyyət qazanmış şəhidlərimizin ruhuna and içməliyik. Elə bu gündən and içməliyik.

Bizi kənd məktəbinin önündən Kərimin büstü yola salır... Ehtiramla baş əyib, pıçıltıyla “Yenə görüşənə qədər, qəhrəman!” – deyirəm.

*Qarahəsənli kəndindən bir az aralıda, ətrafı axarlı-baxarlı əkin sahələri ilə çevrələnmiş bir körpü var. Bu körpü Kərim Kərimovun adını daşıyır. Kərim və onun kimi minlərlə şəhidimiz də Azərbaycan üçün polad körpüdür, həm də sınmayan, əyilməyən, Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü qədər ağır bir yükü dünənimizdən bu günümüzə ötürən qəhrəmanlıq körpüsü. Bu günümüzdən gələcəyimizə atılan polad körpülərimizin dayağı isə güclü dövlət, yenilməz ordu, sağlam əqidə, Vətənə və dövlətə sədaqətdir.*

**Səbuhi HÜSEYNOV**

*Naxçıvan Qızlar Liseyi*
*2015-ci il üçün kotirovka elan edir*
**Ərzaq məhsullarının satın alınması**
Kotirovka 26 yanvar 2015-ci il tarixədək qəbul edilir. Sorğuda aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, texniki, iqtisadi və maliyyə imkanlarına malik olması göstəricilərinə üstünlük veriləcəkdir. Kotirovka zərfi 27 yanvar 2015-ci il tarixdə saat 11[00]-də Naxçıvan Qızlar Liseyində açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.
***Əlaqələndirici şəxs: Həşimov Zahid Sənan oğlu***
***Telefon: (050) 358-92-87***
***Ünvan: Naxçıvan Qızlar Liseyi***

***İtmişdir***
Şahbuz rayon Kükü kənd sakini Əliyeva Bəyim Əhməd qızının adına olan 163 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 49